“Dövlət rüsumu haqqında”

Arayış

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu və digər qanunlarla müəyyən edilmiş hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin, hüquqi hərəkətlər və onların ödənişləri barədə siyahı aşağıdakılardan ibarətdir:

1. Hidrometeorologiya xidmətlərinə görə ödəmələrdən - (“Hidrometeorologiya fəaliyyəti haqqında” AR Qanununun 6,23,24-cü maddələri; NK-nın 9.07.1999-cu il tarixli 115№-li «Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlardan istifadəyə görə ödəmə dərəcələri və qaydaları» Qərarı);

- Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə standart vaxtlarda aparılan müşahidələrin nəticələri – 30 manatdan - 3368 manat (33 adda xidmət göstərilməsinə görə müxtəlif qiymətlər təyin edilib);

-Gəmilər ilə aparılan hidrometeoroloji, okeonoloji ,dəniz ekspedisiyaları üzrə müşahidələrin nəticələri və illik məlumatlar – 3817 manat və 1272 (2 adda xidmət göstərilməsinə görə);

- Arayış xarakterli hidrometeoroloji məlumatlar - 441; 838; 27; 93; 329; 2360 manat (6 adda xidmət göstərilməsinə görə);

- Xüsusi sifarişlə müşahidə edilmiş hidrometeoroloji məlumatlar - razılaşma yolu ilə (4 adda xidmət göstərilməsinə görə);

- İqtisadiyyat sahələrinə verilən xüsusiləşmiş hidrometeoroloji proqnozlar - 1; 2; 3; 4; 130; 326; 40; 31 manat (11 adda xidmət göstərilməsinə görə);

- Xüsusiləşdirilmiş araşdırmalar - 5675; 98; 6138; 5675; 3480 manat (5 adda xidmət göstərilməsinə görə);

- Arayış-rejim xarakterli hidrometeoroloji məlumatlar - 1058; 98; 3076; 3816; 2652 manat (7 adda xidmət göstərilməsinə görə).

2. Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrdən - (“Balıqcılıq haqqında” AR Qanununun 31-ci maddəsi, Azərbaycan Respublikası Prezidentinin 13.06.1998-ci il tarixli 722 №li Fərmanı, NK-nın 06.09.1999-cu il tarixli 146 №li Qərarı ilə «Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni balıq ovuna görə cərimələr»);

- balıq ehtiyatlarından istifadəyə görə ödəmələr - düsturla müəyyən edilir (Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri və dərəcələrinə əsasən 1 tonu ücün müəyyən edilmiş ödəniş qiymətləri müvafiq düstura əsasən hesablanır);

- ov biletlərinin verilməsi (rüsum) - 5 manat.

3. Heyvanlar aləmindən istifadəyə görə ödəmələrdən (Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzrə) - İnzibati Xətalar Məcəlləsi (9-cu fəsil), AR Prezidentinin 3.08.2004-cü il tarixli 106 №li Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının bir sıra Milli Parkları haqqında Əsasnamələrin 1.6 və 1.9 bəndləri, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında AR Qanununun 43-cü maddəsi, Azərbaycan Respublikası Prezidentinin 15.07.2000-ci il tarixli 366 №li Fərmanı, NK-nin 6.11.2004-cü il tarixli 176 №li Qərarı ilə «Heyvanlar aləmindən

istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr», NK-nin 12.07.2005-ci il tarixli «Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının və vəsaitlərinin yaradılması və onlardan istifadə Qaydası Haqqında" 134 №li Qərarı;

- bir baş vəhşi heyvanın vurulması ücün ödəmə - şərti maliyyə vahidinin 1mislindən-4000 mislinədək (vəhşi heyvanların adları üzrə şərti maliyyə vahidinin müxtəlif mislləri ilə təyin edilir);

- ovlanmış bir baş ov heyvanı ücün ov qənimətinin qiyməti - şərti maliyyə vahidinin 1mislindən-4000 mislinədək (heyvanların adları üzrə şərti maliyyə vahidinin müxtəlif mislləri ilə təyin edilir).

4. Ətraf Mühitin Mühafizəsi Fondu üzrə cərimə və ödəmələrdən, ov üçün lisenziyaların verilməsindən, könüllü ianələr - "Atmosfer havasının mühafizəsi haqqında" AR Qanununun 8.5-ci maddəsi, "Ətraf mühitin mühafizəsi haqqında" AR Qanununun 27-ci maddəsi, Nazirlər Kabinetinin 22.02.2001-ci il tarixli 41 nömrəli Qərarı "Ətraf mühitin mühafizəsi üzrə dövlət Fondu haqqında Əsasnamə", Azərbaycan Respublikasının 6.11.2007-ci il tarixli 478-IIIQD nömrəli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli «Ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi Qaydası» və Nazirlər Kabinetinın 06.11.2007-ci il tarixli 122 nömrəli "Təbii ehtiyatlara görə haqq və təbii mühitə atılan zərərli maddələrə görə ödəmələr alınması və bu ödəmələrdən istifadə Qaydaları" haqqında qərarları):

- ətraf mühitin mühafizəsi üzrə qanunvericiliyin pozulmasına görə cərimələr - müxtəlif misilləri üzrə təyin edilən cərimələrə görə;

- təbiətdən istifadəyə görə ödəmələr - müxtəlif misilləri üzrə təyin edilən cərimələrə görə;

5. Ətraf mühitə təsirin,atılan tullantı, axıntı həddlərinin öyrənilməsi, ekoloji pasportların hazırlanması üzrə - "Ətraf mühit haqqında" Azərbaycan Respublikası Qanununun 30,31,32b maddələri, Nazirlər Kabinetinin 15.04.2001-ci il tarixli 63 №li Qərarı ilə;

- kənar təşkilatlara xidmətlərin göstərilməsindən - Razılaşma yolu ilə.

6. Meşə təsərrüfatı sahəsində əsas xidmətlər üzrə ödəmələrdən - ( meşə sahələrinin icarə qiyməti, əsas meşə və kol cinslərinin kóküstü buraxılış nırxları) - AR "Meşə Məcəlləsi"nin 47,48,64,65-ci maddələri, Azərbaycan Respublikası Prezidentinin 29.12.2006-cı il tarixli 510 №li «Xüsusi razılıq tələb olunan bəzi fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq verilməsinə görə ödənilən rüsumun məbləği barədə" Fərmanı, Nazirlər Kabinetinın 24.08.1994-cü il tarixli 312 №-li «Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni köküstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında», 30.09.2004-cü il tarixli 145 nömrəli «Meşə qanunvericiliyinin pozulması hallarının qarşısının alınması tədbirləri haqqında", 17.10.1998-cu il tarixli 214 nömrəli «Meşə fondu torpaqlarının icarəyə verilməsi Qaydası», 30.10.1998-ci il tarixli 219 nömrəli «Meşə fondu sahələrindən

elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə Qaydaları» haqqında qərarları:

- meşə fondu sahələrinin icarə qiyməti - razılaşma yolu ilə;

- Işlik oduncağa - 6 yüksəldici əmsal (1 kub metr-0.22-198.39 manat), (oduncağın cinsi, meşə nırx dərəcələri, daşınma məsafəsindən asılı olaraq təyin edilir);

- oduna(qabıqla) - 10 yüksəldici əmsal (1.4 -270.8 manat), (oduncağın cinsi, meşə nırx dərəcələri, daşınma məsafəsindən asılı olaraq təyin edilir);

- oduncağın daşınma yolu ilə satışı, yardımçı təsərrüfat sahəsi üzrə məhsulların satışı (bitkilər, yabanı və dərman bitkiləri, meyvə-tərəvəz, arıcılıq və sair), ağac və kol bitkilərinin toxumlarının və əkin materiallarının satışı – razılaşma yolu ilə;

7. Kimyəvi analitik təhlillərin aparılmasına görə (“Hidrometeorologiya fəaliyyəti haqqında” AR Qanununun 17-ci maddəsi, “Ətraf mühit haqqında” AR Qanununun maddələrinə və Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi,Turizm Nazirliyi, ETS Nazirlikləri üzrə razılaşdırılmış xərc normalarına əsasən):

- kimyəvi təhlillərin aparılması - 0.8 manatdan -930 manatadək (1 sınaq və 1 təyin üzrə aparılan monitorinqə görə).

8. Atmosfer havasına zərərli maddələrin atılmasına və toksik tullantıların zərərsizləşdirilməsinə görə dövlət büdcəsinə ödənilən rüsum üzrə (AR NK-nın 13.07.2002-ci il tarixli 112 №li Qərarı ilə «Atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə xüsusi icazə alınmasına görə ödəmələrin miqdarı və istifadə olunması qaydaları» və Azərbaycan Respublikası Prezidentinin 29.12.2006-cı il tarixli «Xüsusi razılıq tələb olunan bəzi fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq verilməsinə görə ödənilən rüsumun məbləği barədə” 510 №li Fərmanı)

- təhlükəlilik kateqoriyasına aid müəssisələr üçün – 720 (şərti maliyyə vahidinin misli ilə müəyyən edilir);

- təhlükəlik kateqoriyasına aid müəssisələr ücün – 360 (şərti maliyyə vahidinin misli ilə müəyyən edilir);

- təhlükəlik kateqoriyasına aid müəssisələr ücün – 180 (şərti maliyyə vahidinin misli ilə müəyyən edilir);

- təhlükəlik kateqoriyasına aid müəssisələr ücün - 90 (şərti maliyyə vahidinin misli ilə müəyyən edilir).

- radioaktiv və ionizə şüaları verən maddələrin tullantılarının saxlanması və basdırılması - 1100 manat;

- toksiki istehsalat tullantılarının utilizasiyası və zərərsizləşdirilməsi – 1100 manat.

9. Mineral-Xammal bazasının bərpası (“Yerin təki haqqında” 13.02.1998-ci il tarixli AR-nın Qanununun 41-ci maddəsi və onun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 06.03.2000-ci il tarixli 351 №li Sərəncamı):

- Mineral-Xammal bazasının bərpasına ayırmaların obyektləri və dərəcələri üzrə - Yanar şist-3, qara metal-2, əlvan və nadir metallar-3, nəcib metallar-5, qeyri filiz faydalı qazıntılar-2-4, yeraltı sular-3 (faydalı qazıntılardan əldə olunan və realizə edilən 1-ci əmtəə məhsulunun dəyərindən ayırmalar,faizlə).

10. Hüquqi və fiziki şəxslərə yerin təki haqqında geoloji informasiyaların verilməsinə görə ödəmələrdən - (NK-nın 15.10.1999-cu il tarixli 164 №li Qərarı ilə «Yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın alınması qaydası və miqdarı»);

- regional yönümlü informasiya – 1.5 %-ə qədər (İnformasiyanın xarakteri və aparılmış işlərin mərhələlərindən asılı olaraq faiz dərəcələri müəyyən edilir);
- axtarış yönümlü informasiya - 3.0%-ə qədər (İnformasiyanın xarakteri və aparılmış işlərin mərhələlərindən asılı olaraq faiz dərəcələri müəyyən edilir);
- axtarış qiymətləndirmə və kəşfiyyat yönümlü informasiya - 5.0 %-ə qədər (İnformasiyanın xarakteri və aparılmış işlərin mərhələlərindən asılı olaraq faiz dərəcələri müəyyən edilir).

11. Standartlaşdırma, sertifikatlaşdırma və patentləşdirmə xidmətləri üzrə metroloji cihazların yoxlanmasına görə ödəmələrdən - (Tarif Şurasının 10.12.2004-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmiş tariflərə əsasən);

- kənar təşkilatların metroloji cihazlarının yoxlanılması xidmətləri - 9.4 manat, 11 manat (Ölçü vasitələrinin adı və markasına görə).

12. Ekoloji ekspertizanın keçirilməsinə görə ödəmələrdən - (Nazirlər Kabinetinin 22.02.2001-ci il tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi qaydası»):

- ətraf mühitə təsirin qiymətləndirilməsinin icrası üçün - layihənin ümumi smeta dəyərindən asılı olaraq əmsallara əsasən düsturla təyin edilir;
- sifarişci tərəfindən öz gücü ilə hazırlanmış sənədlərin ekoloji ekspertizasına - 20 manatdan -100 manatadək

13. Elmi tədqiqat xidmətlərindən (Azərbaycan Respublikası Prezidentinin 18.09.2001-ci il tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Əsasnaməsinin 10.6.1-ci bəndi):

- kənar təşkilatlara xidmətlərin göstərilməsindən - Razılaşma yolu ilə.